# "Arzum erməni idmançısı ilə döyüşərək qalib gəlməkdir"

## Bakıdakı 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Rasim Çobanlı ilə söhbət

**Rəşad ZİYADOV,** *"Azərbaycan müəllimi"*
r.ziyadov@muallim.edu.az





Çobanlı Rasim Tofiq oğlu 1998-ci il yanvarın 25-də Bakıda anadan olub. Uşaq yaşlarından idmana böyük maraq göstərən Rasim valideynlərinin, ən çox da babasının istəyi ilə 2010-cu ilin sentyabrından boksla məşğul olub. 2011-ci ilin fevral ayından isə Bakıdakı 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin boks bölməsində təcrübəli məşqçi-müəllim Vüqar Ağalarovdan bu idman növünün sirlərini dərindən öyrənməyə başlayıb. Rasim Çobanlının peşəkar boksda uğurlarına gəldikdə, ilk uğuru 2012-ci ilin avqustunda Respublika çempionatında I yerın sahibi olmasıdır. O, bundan başqa, 2013-cü ilin fevralında Azərbaycan çempionatında III yeri, 2014-cü ilin martında Hövsan Olimpiya İdman Kompleksində 1998-1999-cu il təvəllüdlü yeniyetmələr arasında boks üzrə Azərbaycan birinciliyində isə 70 kq çəki dərəcəsində yenidən ölkə çempionu olub. 2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyi münasibəti ilə keçirilən 100-ə yaxın idmançının qatıldığı turnirdə iştirak edərək II yeri tutub.

Ölkə xaricində keçirilən yarışlara qatılan Rasim Çobanlı bu il iyun ayının ortalarında Rusiya Federasiyasının Krasnodar şəhərində keçirilən beynəlxalq turnirdə iştirak edərək II yerin sahibi olub. Bu ilin avqust ayında Özbəkistanın paytaxtı Daşkənd şəhərində15 ölkədən 60-a yaxın idmançının iştirakı ilə keçirilən beynəlxalq turnirdə də həmyerlimiz qələbə qazanıb. Sentyabr ayında yığma komandanın tərkibində Türkiyəyə gedən Rasim Avropa birinciliyinə hazırlıq üçün təlim-məşq toplantılarında iştirak edib. Bundan sonra o, 2014-cü il noyabrın 1-dən 8-nə kimi Rusiyanın Anapa şəhərində keçirilən məktəblilərin Avropa birinciliyində qüvvəsini sınayıb. 33 ölkədən 260 boksçunun qatıldığı birincilikdə 70 kq çəkidə çıxış edən Rasim Çobanlı çexiyalı Daniel Svestkanı mübarizədən kənarlaşdıraraq III yerin sahibi olub.

Ötən ilin dekabr ayında Azərbaycan boksunun banilərindən olan mərhum Abbas Ağalarovun xatirəsinə həsr olunan gənc boksçuların beynəlxalq turnirində 75 kq çəki dərəcəsində döyüşən Rasim Çobanlı final görüşünü qələbə ilə başa vurub. O, Türkmənistan idmançısı Nuryağdı Nuryağdıyevi məğlub edərək turnirin qalibi olub. R.Çobanlı boks üzrə gənclər arasında yeni ölkə çempionları müəyyənləşdirən və beş gün davam edən Azərbaycan çempionatında 75 kq çəkidə qüvvəsini sınayıb. 200-ə yaxın idmançı arasında Rasim qələbə qazanıb. O, 2012-ci ildən boks üzrə yığma komandanın üzvüdür. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının təkmübarizlik fakültəsinin I kurs tələbəsidir.

**Rasim Çabanlının dediklərindən:** Ailəmiz idmanı çox sevir. Xüsusən də babam. Babam Yahya Çobanov məşhur el pəhləvanlarındandır. Mən göz açıb onun idmançı kimi ağırlıq qaldıraraq el məclislərində alqışlara səbəb olan çıxışlarını görmüşəm. Uşaq yaşlarından mən də onun kimi idmançı olmağı qarşıma məqsəd qoydum. O, hər gün sübhdən durub məni də yuxudan oyadıb idman etdirirdi, qaçırdıq. Mən də onun ağırlıqqaldırma alətlərindən istifadə edirdim. Düzdür, o yaşda mənə bir o qədər ağırlıq olmaz, amma çox həvəsli idim. Bir dəfə, heç yadımdan çıxmaz, 10 kq idman alətini ayağıma da salmışdım. Uşaq vaxtı dəcəl olmuşam. Babam məsləhət gördü ki, boksa gedim. Boks da məşhur idman növüdür. İlk vaxtlar sağlamlıq və çətin məqamda özümü müdafiə etmək üçün idmana maraq göstərirdim. Böyük idmana gələcəyimi düşünmürdüm. Sonradan yaxşı nəticələr göstərdim və özümü idmanda gördüm.

*- Məktəbdə necə şagird olmusan?*

- Bir az dəcəl olmuşam. Dəcəl olmağıma baxmayaraq dərslərimi yaxşı oxumuşam. Bitirdiyim Xətai rayon 263 nömrəli tam orta məktəbin müəllimləri indi də məni çox sevir, mən də onları. Məktəbin ictimai tədbirlərində həmişə aktiv olmuşam. Coğrafiya fənnini sevirdim. Əsasən idmanla məşğul idim.

*- Ən güclü rəqibin hansı idmançı olub?*

- Bütün rəqiblərimi güclü saymışam. Qarşındakı rəqibi zəif görməməlisən. Ancaq çəkindiyim heç bir boksçu olmayıb. Hər zaman özümə güvənərək döyüşmüşəm. Ancaq hər yarışda həyəcan olub. Əsasən birinci raundda müdafiə olunaraq rəqibin zəif nöqtələrini müəyyən edirəm. Sonrakı raundlarda isə müəyyən etdiyim istiqamətdə döyüşürəm.

*- Gənclərə sözün...*

- Mən özüm də gəncəm. İstərdim ki, gənclər sağlam fikirli böyüsünlər. Xeyirli işlərlə məşğul olsunlar. Onların gələcək həyatına, ailəsinə, övladlarına faydalı olacaq işlər görsünlər. Qarşılarına qoyduqları məqsədlər uğrunda mübarizə aparsınlar. Zəhmətdən, əziyyətdən qorxmasınlar.

*- Rasim, özün dediyin kimi hər bir idmançının məqsədi, planı olmalıdır. Bu yolda sənin məqsədin və arzun nədir?*

- İdman sahəsi sürətlə inkişaf edir. Azərbaycan idman ölkəsidir. Mənim məqsədim bu yolda Azərbaycanımızı daha da tanıdaraq dünyada layiqli təmsil etməkdir. Arzum isə qarşıdakı hansısa yarışların birində erməni idmançısıyla döyüşərək qalib gəlməkdir.

Bakıdakı 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin direktoru **Elvin Məmmədxanov:** Məktəbin nəzdində üç bölmə fəaliyyət göstərir. Qılıncoynatma, velosiped və boks bölmələri. Məktəbimizin boks bölməsinin yetirmələrindən olan Rasim Çobanlı perspektivli, gənc və güclü idmançıdır. Artıq bu idmançı çox qısa bir müddətdə böyük nailiyyətlər əldə edib. Ümid edirəm ki, bizim bu yetirməmiz bir daha sübut edəcək ki, ölkəmiz idman ölkəsidir.